# İqlim idarəçiliyi nədir?



## İqlim idarəçiliyi nədir?

© Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF)
Azərbaycan, 2023 (ikinci nəşr)
İlk dəfə 2020-ci ildə nəşr edilmişdir.

**Müəlliflər:** Sara Konyak Qonsales və Emiliya Numer
**Texniki məsləhətçi:** Adrian Martinez
**Əlaqələndirmə: H**anox Barlevi, İqlim Dəyişmələri və Fəlakət Riskinin Azaldılması üzrə Regional Mütəxəssis, UNICEF-in Latın Amerikası və Karib Hövzəsi üzrə Regional Nümayəndəliyi
**Dizayn:** Matias Daviron

**Azərbaycan versiyası:**
**Redaktə:** Firuzə Sultan-zadə, Pərvin Əzizli ("EkoSfera" Ekoloji-Sosial Mərkəzi İB)
**Redaktə işinə dəstək:** Rəna Şabanzadə (Gənc İqlim Elçisi), Günel Hacəliyeva (Gənc İqlim Elçisi)
**Dizayn:** Nərmin Orucova ("EkoSfera" Ekoloji-Sosial Mərkəzi İB)
**Tərcüməçi:** İsmayıl Cəbrayılov

Bu nəşr mənbəni (UNICEF) qeyd etmək şərtilə, yalnız tədqiqat, təşviqat və təhsildə istifadə üçün çoxaldıla bilər. Bu nəşr UNICEF-in əvvəlcədən yazılı icazəsi olmadan başqa məqsədlər üçün çoxaldıla bilməz. İcazələr üçün müraciətlər UNICEF Azərbaycana yönləndirilməlidir: baku@unicef.org

Bu nəşrdəki fikirlər müəlliflərin baxışlarını əks etdirir və UNICEF-in siyasətləri və baxışları ilə üst-üstə düşməyə bilər. UNICEF-ə məxsus olmayan hər hansı veb-sayta istinad edilməsi orada olan məlumatların və ya ifadə edilən fikirlərin düzgünlüyünün UNICEF tərəfindən təsdiqləndiyini ehtiva etmir.

Bu vəsaitin Azərbaycan dilində olan versiyası UNICEF Azərbaycan, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin birgə təşəbbüsü çərçivəsində tərcümə, adaptasiya və çap edilmişdir.

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi
AZE GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ
"EkoSfera" Ekoloji-Sosial Mərkəz İctimai Birliyi
unicef hər bir uşaq üçün

# İqlim idarəçiliyi nədir?

Milli iqlim idarəçiliyi və beynəlxalq iqlim danışıqlarını anlamaq üçün bələdçi



# Təqdimat

"Biz, gənclər olaraq, cəmiyyətin müxtəlif sahələrində dəyişiklik elçiləriyik. Biz **iqlim dəyişmələri ilə mübarizə tədbirlərindən** kənarda qalmırıq: bizim səsimiz getdikcə daha çox eşidilir və biz **tam iştirak etmək** hüququ tələb edirik. Əslində, bizim iştirakımız dövlət siyasətinin hazırlanması prosesinin  mərkəzində yer almalı olan bir hüquqdur."

**Latın Amerikası və Karib hövzəsi ölkələrində gənc iqlim fəalları üçün alətlər dəsti** planetimizin vəziyyətindən narahat olan və təşviqat apararkən və tədbirlər görərkən çətinliklərlə qarşılaşmış sizin kimi gənc fəallar üçün gənclər tərəfindən yaradılmışdır.

Bizim məqsədimiz sizi **faydalı və məlumatlı iştiraka** hazırlamaq üçün iqlim dəyişmələri ilə qlobal, regional və milli səviyyəli mübarizə tədbirlərinin istiqamətini təsvir edən aydın, konkret, asan başa düşülən məlumatları bölüşməkdir.

Kitabçalar bir-biri ilə əlaqəlidir və onları ardıcıllıqla oxuya və hər mövzu üzrə biliklərinizi tədricən dərinləşdirə bilməyiniz üçün müvafiq qaydada dizayn edilib. Bundan əlavə, ehtiyaclarınıza uyğun olaraq, onlara ayrı-ayrılıqda nəzər sala bilərsiniz.

## Bura aşağıdakılar daxildir:

**İqlim dəyişmələri ilə mübarizə alətləri:** İqlim dəyişmələri ilə mübarizə üzrə qlobal məqsədlər və Dayanıqlı İnkişaf Məqsədlərinə doğru irəliləyişə nail olmaq üçün əsas alətlər, o cümlədən Paris Sazişi, milli səviyyədə müəyyən edilmiş töhfələr və digər alətlər.

**İqlim idarəçiliyi nədir?** İqlim idarəçiliyi və milli və beynəlxalq səviyyələrdə qərar qəbulu prosesi, o cümlədən İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC), onun tətbiqi və iştirak mexanizmləri barədə məlumat.

**Addım atmağa hazır olun!** Digər fəalların praktiki məsləhətləri və öz təcrübələrinə əsaslanan fikirləri iqlim gündəliyində iştirak etmək və ona təsir etmək üçün tələb olunan bacarıqlara yiyələnməyinizə kömək edəcək.

**Gənclər üçün Paris Sazişi:** Sazişin təfərrüatları, onun əhəmiyyəti və bütün maddələri sadə dildə.

**Gənclər üçün izahlı iqlim lüğəti:** Hər bir iqlim fəalının bilməli olduğu əsas anlayışlar və təriflər.

Bu kitabçada "gənclər" və "gənc insanlar" terminlərindən istifadə etdikdə, 15-24 yaşlı yeniyetmələr və gənclər nəzərdə tutulur.

| | | | |
|---|---|---|---|
| 0 - 17 | 10 - 19 | 15 - 24 | 10 - 24 |

# Mündəricat


4 Qısaltmalar və ixtisarlar

6 Giriş

7 Çoxsəviyyəli iqlim idarəçiliyi nədir?

9 Milli və submilli səviyyəli iqlim idarəçiliyi

13 Beynəlxalq iqlim idarəçiliyi

26 İlhamlan! Beynəlxalq səviyyədə gənclərin iştirakına dair təcrübələr

27 Mənbələr




# Qısaltmalar və ixtisarlar

| | |
|---|---|
| **5C** | Consejo Consultivo Ciudadano de Cambio Climático (İqlim Dəyişmələri üzrə Vətəndaş Məşvərət Şurası) |
| **AC** | Uyğunlaşma Komitəsi |
| **ACE** | İqlim sahəsində Səlahiyyətlərin Artırılması üçün Fəaliyyət |
| **AILAC** | Asociación Independiente de América Latina y el Caribe (Latın Amerikası və Karib Hövzəsi üzrə Müstəqil Assosiasiya) |
| **ALBA** | Alianza Bolivariana para los Pueblos de Nuestra América (Amerika Xalqları üçün Bolivar İttifaqı) |
| **AOSIS** | Kiçik Ada Dövlətləri İttifaqı |
| **BINGO** | Biznes və Sənaye QHT-ləri Qrupu |
| **Tərəflər Konfransı** | |
| **CACAM** | Mərkəzi Asiya, Qafqaz, Albaniya və Moldova Ölkələr Qrupu |
| **CAN-LA** | İqlim Fəaliyyəti Şəbəkəsi - Latin Amerikası |
| **CMA** | Paris Sazişinin Tərəflərinin Müşavirəsi kimi çıxış edən Tərəflər Konfransı |
| **Tərəflər Konfransı** | Tərəflər Konfransı (COP) |
| **GK** | Gənclər Konfransı |
| **CTCN** | İqlim Texnologiyaları Mərkəzi və Şəbəkəsi |
| **EIG** | Ətraf Mühitin Bütövlüyü Qrupu |
| **ENGO** | Ekoloji QHT-lər Qrupu |
| **Aİ** | Avropa İttifaqı |
| **İQ** | İstixana qazları |
| **IPCC** | İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panel |
| **IPO** | Yerli xalqların təşkilatları |
| **LCIPP** | Yerli icmalar və yerli xalqların platforması |
| **LGMA** | Yerli hökumət və bələdiyyə orqanları |
| **LMDC** | Bənzər mövqeli inkişaf etməkdə olan ölkələr |
| **MOCIC** | Movimiento Ciudadano frente al Cambio Climático (İqlim Dəyişmələrinə qarşı Vətəndaş Hərəkatı) |
| **NAMA** | Milli Səviyyədə Məqbul Mitiqasiya Tədbirləri |
| **NAPA** | Uyğunlaşma üzrə Milli Fəaliyyət Proqramları |

| | |
|---|---|
| **NDC** | Milli səviyyədə müəyyən edilmiş töhfələr |
| **QHT** | Qeyri-hökumət təşkilatı |
| **OLAC** | Observatorio Latinoamericano para la Acción Climática (Latın Amerikası İqlim Fəaliyyəti Observatoriyası) |
| **PCCB** | Potensialın Artırılması üzrə Paris Komitəsi |
| **Pre-COP** | Tərəflər Konfransına Hazırlıq İclası |
| **RINGO** | Müstəqil və Elmi-tədqiqat QHT-ləri |
| **SBI** | Həyatakeçirmə üzrə Yardımçı Orqan |
| **SBSTA** | Elmi və Texnoloji Məsləhət üzrə Yardımçı Orqan |
| **SCAC** | Sociedad Civil para la Acción Climática (İqlim Fəaliyyəti üçün Vətəndaş Cəmiyyəti) |
| **SCF** | Maliyyə üzrə Daimi Komitə |
| **DİM** | Dayanıqlı İnkişaf Məqsədi |
| **SICA** | Sistema de Integración Centroamericana (Mərkəzi Amerika İnteqrasiya Sistemi) |
| **TEC** | Texnologiya üzrə İcraçı Komitə |
| **TUNGO** | Həmkarlar İttifaqları QHT-ləri |
| **UNFCCC** | BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası |
| **WGC** | Qadın və Gender üzrə Təmsilçi Qrup |
| **VBM** | İtki və Zərər üzrə Varşava Beynəlxalq Mexanizmi |
| **YOUNGO** | Gənclər QHT-lərinin Təmsilçi Qrupu |

# Giriş

İqlim həllərinin yaradılması **bir çox səviyyələri özündə ehtiva edən** mürəkkəb, qlobal miqyaslı bir prosesdir və cəmiyyətin bütün təbəqələri üçün aktualdır. İqlim dəyişmələri sahəsində idarəçilik ölkələrin inkişafı, eləcə də təbiət və insanların rifahı ilə əlaqəlidir.



Proseslərin iştirakçılıq şəraitində baş verməsi və səmərəli və effektiv iqlim tədbirləri ilə nəticələnməsi üçün insanların hüquqları və onları qoruyan normativ-hüquqi aktlar nəzərə alınmalıdır. İqlimlə bağlı qərarların və siyasətlərin həssas əhali qruplarının düşüncələrinə, maraqlarına və hüquqlarına həssaslıqla yanaşması da son dərəcə vacibdir. Gənclər iqlim tədbirlərinin uğurlu olmasında mühüm rol oynayan tərəflərdir və onların iqlimlə bağlı qərarların qəbulunda iştirakı insan hüquqlarından biridir.

Bu bələdçidə bizim rifahımıza təsir edən və iqlim fəaliyyətinin istiqamətini müəyyən edən iqlim danışıqları və qərar qəbulu proseslərinə xüsusi diqqət yetirilir.

Burada aşağıdakı mövzular əhatə edilir:




Çoxsəviyyəli iqlim idarəçiliyi və onun iqlim dəyişmələri ilə bağlı qərar qəbulu proseslərinə təsirləri;




İqlim idarəçiliyinin milli səviyyədə necə yaradılması, onun maraqlı tərəflərinin təhlili və iştirak imkanı yarada biləcək proseslər;




İqlim dəyişmələri ilə bağlı beynəlxalq danışıqların aparılması: bu bölmədə danışıq proseslərinin necə təşkil olunması, müvafiq qurumlar, sosial maraqlı tərəflərin necə cəlb olunması ətraflı təsvir edilir.

# Çoxsəviyyəli iqlim idarəçiliyi nədir?

Çoxsəviyyəli iqlim idarəçiliyi müxtəlif milli və yerli hökumətlər, beynəlxalq təşkilatlar, özəl sektor, QHT-lər və digər sosial maraqlı tərəflərin cəlb olunduğu davamlı müzakirə və danışıqlar prosesidir. Onun məqsədi iqlim dəyişmələri ilə mübarizə imkanlarını təşviq etmək və bu istiqamətdə tədbirlərə təkan verməkdir. Bu qərar qəbulu və müzakirə prosesləri rəsmi və qeyri-rəsmi, çevik və uyğunlaşa bilən və müxtəlif səviyyələrdə - yerli, milli, regional və beynəlxalq səviyyələrdə ola bilər.



İqlim dəyişmələrinin təsirlərinin qlobal, milli və yerli miqyasını nəzərə alaraq, çoxsəviyyəli idarəçilik onun çoxsəviyyəli səbəblərini və təsirlərini aradan qaldırmaq üçün son dərəcə vacibdir və **səmərəli cavab tədbirləri üçün bütün sosial maraqlı tərəflərin iştirakı zəruridir.**

## Çoxsəviyyəli iqlim idarəçliyi[1]




1 Jänicke, M., 'The Multi-level System of Global Climate Governance – the Model and its Current State', Environmental Policy and Governance, vol. 27, no. 2, 2017, pp. 108–121, <https://doi.org/10.1002/eet.1747>, baxış tarixi: 28 iyun 2020.

Çoxsəviyyəli idarəçiliyin kompleks xarakteri həm də onun innovasiyanı, problem həll etmə potensialını, öyrənməni və daha çox sektora fayda verən həllərin yaradılmasını gücləndirməsinə və stimullaşdırmasına imkan verir. Bundan əlavə, **o, qərar qəbulu və ya dövlət siyasəti proseslərinin səmərəliliyini** artıra və xüsusi kontekstlərə və geniş spektrli mövzulara uyğunlaşdırıla bilən mexanizmlər yarada bilər. Buna görə də, iqlimlə əlaqəli qərar qəbulu proseslərini başa düşməyə çalışarkən, biz onların çoxsəviyyəli xarakterini yadda saxlamalıyıq.



Çoxsəviyyəli iqlim idarəçiliyi bir çox faydalara malikdir:

- Yerli, milli və beynəlxalq plan və siyasətlər arasında uzlaşmanı təmin edir;
- Müxtəlif səviyyələrdə maraqlı tərəflər və səlahiyyətli orqanlar arasında əməkdaşlığı, innovasiyanı və öyrənməni təşviq edir;
- Cəmiyyətin müxtəlif səviyyələrinin və qruplarının biliklərini, ideyalarını və baxışlarını özündə birləşdirir;
- Məqsəd, mexanizm, siyasət və həlləri birgə yaradır, onlar arasında müəyyən uzlaşma səviyyəsinin qorunub saxlanmasını təmin edir;
- Məlumat mübadiləsi, qərar qəbulu, sonrakı izləmə tədbirləri, monitorinq və hesabatvermə üçün alətlər və ya strukturlar yaradır;
- Konkret vəzifələrin, münasibətlərin və öhdəliklərin razılaşdırılması vasitəsilə müxtəlif səviyyələrdə tərəflər arasında daha yaxşı əməkdaşlığa imkan verir.

# Milli və submilli səviyyəli iqlim idarəçiliyi

Bir çox qərar qəbulu prosesləri, xüsusilə proqramlar, dövlət siyasətləri və tənzimləmələri ilə bağlı olanlar milli və ya submilli (ölkənin inzibati ərazi bölgüsünə uyğun olaraq) səviyyədə baş verir . **İqlim tədbirləri əsasən məhz bu səviyyələrdə həyata keçirilir.**

Müxtəlif səviyyələrdə və sahələrdə fəaliyyət göstərən maraqlı tərəflər qərar qəbul edən orqanın səviyyəsindən asılı olmayaraq, dialoq və danışıq proseslərinə cəlb olunur. Bu milli və submilli qərar qəbulu platformaları ictimai iştirak üçün imkanlar yaradır və gənclər təşkilatları da bu imkanlardan faydalana bilər.

**Gəlin, əvvəlcə milli iqlim idarəçiliyində müxtəlif sosial maraqlı tərəflər və onların rolları ilə tanış olaq.**

## Sosial maraqlı tərəflər və onların qərar qəbulunda rolu

Ətraf mühit və iqlimlə bağlı qərarların qəbulunda iştirak insan hüquqlarından biridir. Hər kəs, o cümlədən gənclər və onları təmsil edən təşkilatlar iqlimlə bağlı qərar qəbulu proseslərində iştirak etmək hüququna malikdir və dövlət bu hüququn həyata keçirilə bilməsini təmin etmək öhdəliyini daşıyır. Beləliklə, ətraf mühitlə bağlı məlumatlara, iqlim ədalətinə çıxış hüquqları, iqlim fəalları üçün son dərəcə vacibdir.

**Daha ətraflı məlumat üçün baxın: "Gənclər üçün Eskazu Sazişi"**



Maraqlı tərəflərin aşağıdakı siyahısı iqlimlə əlaqəli qərarlara kimlərin cəlb olunduğunu anlamağa kömək edir:



## Dövlət sektoru

Bura dövlət müəssisələri, nazirliklər və milli hökumət və ya Dövlətin digər səlahiyyətlərini həyata keçirən digər qurumlar daxildir. Bu tərəflər milli və ya submilli səviyyədə **dövlət siyasətlərinin, normativ-hüquqi aktların hazırlanmasına və qərar qəbuluna** cavabdehdir.



## Yerli hökumətlər

Bu, vətəndaşlara ən yaxın olan dövlət idarəetmə səviyyəsidir. Onların vəzifəsi yaxın iqlim tədbirləri, o cümlədən Paris Sazişi kimi beynəlxalq razılaşmaların məqsədləri çərçivəsinə uyğun gələn, yerli səviyyədə icra edilə bilən qərarlar verməkdir



## Vətəndaş cəmiyyəti

Bura iqlimlə bağlı qərar qəbulu proseslərində iştirak etmək hüququ olan insanları təmsil edən müxtəlif növ təşkilatlar daxildir. Bu təşkilatlar öz yerli, irsi, ənənəvi, texniki, elmi bilik və təcrübələrinə əsaslanan şərhlər, rəylər və təkliflərlə qərar qəbulu proseslərinə töhfə verir. Onlar müzakirələri vətəndaşların təcrübələri, maraqları, hüquqları və fikirləri üzərində qurmaqla qərar qəbulu proseslərinə təsir edə bilər. Vətəndaş cəmiyyəti həmçinin, icmanın uyğunlaşması üçün şəraiti yaxşılaşdırmağa kömək edən yerli səviyyəli fəaliyyəti stimullaşdırır. Uşaqlar və gənclər üçün təşkilatlar da vətəndaş cəmiyyətinin bir hissəsidir və onlar da eyni iştirak hüququna malikdir.



## Özəl sektor

Bu, ən çox istixana qazları yaradan sektorlardan biridir. Buna görə də, bu sektorda bu tullantıların azaldılması üçün görülən tədbirlər iqlim dəyişmələri ilə mübarizənin mühüm bir komponentidir. Prioritetləşdirilməli olan tədbirlərə istehsal ənənələrinin, enerji portfelinin dəyişdirilməsi və daha dayanıqlı istehsal proseslərinin (və ya paylama və marketinq sistemlərinin) yaradılması daxildir. **İQ tullantılarının yaranmasına görə məsuliyyəti və iqlim dəyişmələrinin təsirləri üzrə yumşaltma və uyğunlaşma texnologiyaları yaratmaq potensialına görə, özəl sektor iqlim dəyişmələri ilə mübarizə tədbirlərində əsas iştirakçılardan biridir.**



## Elm ictimaiyyəti

Bu sektor elmi biliklər əsasında düşünülmüş qərarların verilməsinə imkan verən bilik və tədqiqatları təmin edir. O, həmçinin, yeni imkanların yaradılması, potensialların artırılması və tələb olunan dəyişikliklərin daha yaxşı başa düşülməsini təmin etməklə təhsili gücləndirmək üçün  zəruri resursları və platformaları təmin edir və bununla prosesin effektivliyini və səmərəliliyini artırır.

# Əsas təşviqat prosesləri və qurumları

İştirakçılıq şəraitində keçirilən proseslər seminarların, sorğuların, məsləhətləşmələrin təşkilini, sənədlərin və ya tədqiqatların qəbulunu və hətta virtual iştirak platformalarını ehtiva edə bilər. Onlar həmçinin vətəndaşlarla məsləhətləşmələr və iqlim idarəçiliyində iştirak üçün daimi platformaların yaradılmasını ön plana çəkə bilər. Bu proseslər gənclərin milli və ya submilli səviyyədə iştirakı üçün imkanlardır.

Bu bölmədə sizin öz strategiyalarınızı və təşviqat tədbirlərinizi təşkil edə bilməyiniz üçün əsas platformalar təsvir olunur. Nəzərdə saxlayın ki, bu platformalar ölkədən-ölkəyə dəyişə bilər.

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) beynəlxalq iqlim idarəçiliyi prosesləri ilə birbaşa əlaqəli olan dövlət siyasətlərinin yaradılması və qərarların qəbul edilməsi:** məsələn, hər bir ölkənin UNFCCC-yə təqdim etməli olduğu milli məlumatlar iqlim fəallarının öz ölkələrində **iqlim hədəfləri ilə bağlı hesabatlılıq üçün platformalar tələb etməsi üçün başlanğıc nöqtə ola bilər.** Bu məlumatlara İQ tullantılarının milli inventarı və iqlim tədbirlərinin icrası üçün digər təfərrüatlar daxildir.

2 **Milli səviyyədə müəyyən edilmiş töhfələrin (NDC-lər) yenilənməsi:** bütün ölkələr hər ***beş ildən*** bir öz NDC-lərini yeniləməlidir. Bu prosesi zənginləşdirmək üçün müxtəlif sosial sektorlar, yerli hökumət orqanları, nazirliklər, ictimai institutlar və beynəlxalq təşkilatların hamısı iştirak etməlidir. Gənclər istənilən məsləhətləşmələr və ya seminarlara cəlb olunmalıdır ki, öz şərhləri və baxışları ilə töhfə verə və yeni NDC-lərin iddialılığını və effektivliyini artıra bilsinlər.

*NDC-lər haqqında daha çox öyrənmək üçün,*
***Bax: "İqlim dəyişmələri ilə mübarizə alətləri"***

3 İqlim dəyişmələrinə qarşı digər mübarizə alətlərinin yaradılması və yenilənməsi: NDC-lərdən əlavə, milli iqlim idarəçiliyində iştirakımıza imkan yaradan digər alətlər də mövcuddur.

**Milli Səviyyədə Məqbul Mitiqasiya Tədbirləri (NAMA-lar):** bu sahəvi proseslər müvafiq sosial maraqlı tərəflərlə məsləhətləşmələr vasitəsilə əlaqələndirilməlidir. Bu proseslərlə əlaqələndirilmiş sektorlarda gənclərin iştirakına təminat verilməlidir.

**Uzunmüddətli strategiyalar:** uzunmüddətli olduğu üçün bu mexanizm tez-tez gündəmə gəlmir. Bu strategiyalarda gənclərin hüquq və ehtiyaclarına həssas yanaşmanı təmin etmək üçün gənclər iştirak edə bilərlər.

**Uyğunlaşma üzrə Milli Fəaliyyət Proqramları (NAPA-lar):** bunlar ən zəif inkişaf etmiş ölkələr tərəfindən könüllü olaraq yaradılır, çünki onlar iqlim dəyişmələrinə xüsusilə həssasdırlar. Onların icrası töhfələr və təkliflər vasitəsilə milli və ya submilli məsləhətləşmə prosesində iştirak etməyə imkan verir.

**Paris Sazişi çərçivəsində uyğunlaşma məlumatları:** bunlar ölkənizdə həyata keçirilən uyğunlaşma tədbirlərinin vəziyyətini öyrənmək imkanı verir.

Bundan əldə edilən məlumat sizə təşviqat aparmağa və səlahiyyətli orqanlarla dialoq üçün mexanizmlər tələb etməyə imkan verəcək.



4 **İqlim dəyişmələri ilə bağlı çərçivə qanunların, normativ sənədlərin və ya dövlət siyasətlərinin yaradılması:** bu proseslər çərçivəsində, standartların hazırlanması və tənzimlənməsi üçün məlumatlar təmin edə biləcək dialoq və məsləhətləşmələr keçirilə bilər. Onlar milli səviyyədə iqlim idarəçiliyini tənzimləyir və insanların iqlim tədbirləri ilə bağlı tələb edə biləcəkləri vəzifə və hüquqları müəyyən edir. Məsələn, Perunun iqlim dəyişmələri üzrə çərçivə qanununu və normativ sənədlərini hazırlamaq üçün gənclər də daxil olmaqla bir çox maraqlı tərəflər və sektorlarla dialoqlar (Ətraf Mühit Nazirliyi və müxtəlif təşkilatlar tərəfindən təşviq edilib) aparılıb. Həmin platformalarda qanun layihəsinin məzmunu müzakirə edilərək ictimai müzakirəyə çıxarılıb. Daha sonra ictimaiyyətin rəyi müzakirəyə çıxarılan layihə mətnlərinə daxil edilib.

5 **İqlim dəyişmələri ilə əlaqəsi daha az olan məsələlərlə bağlı qərar qəbulu:** iqlim dəyişmələri su, təhsil, gender, enerji və ya maliyyə kimi digər mühüm məsələlər üzrə proseslərə daxil edilə bilən çoxsahəli məsələ hesab edilməlidir.

Fərq yaratmaq üçün daha çox imkan!

İqlim tədbirləri Dayanıqlı İnkişaf üzrə **2030-cu il Gündəliyi** və 17 Dayanıqlı İnkişaf Məqsədi ilə birbaşa əlaqəlidir. İqlim dəyişmələrinə qarşı mübarizə ilə bağlı olan **13-cü DİM** iqlim dəyişmələri və onun təsirlərinə qarşı təxirəsalınmaz tədbirlər görməyə çağırır. Lakin iqlim dəyişmələri ilə mübarizə bütün digər DİM-lərlə əlaqələndirilə bilər. Siz DİM-lərin iqlim dəyişmələri ilə mübarizə üçün zəruri olan sosial-iqtisadi transformasiyaya töhfə verən icra proseslərinə təsir edə bilərsiniz.

6 **İqlim tədbirləri üçün vətəndaş şuraları və ya platformaları:** bu mexanizmlər dövlət orqanları tərəfindən və ya ictimaiyyətin iştirakını gücləndirmək üçün ictimaiyyətin təşəbbüsü ilə yaradıla bilər. Onlar həmçinin rəsmi platformalara çevrilə bilər. Məsələn:

- Özünün 1-ci NDC-də, Kosta-Rika **İqlim Dəyişmələri üzrə Vətəndaş Məşvərət Şurası (Consejo Consultivo Ciudadano de Cambio Climático - 5C)** yaratmağı öhdəsinə götürüb. Bu, iqlim siyasətinin hazırlanması və icrasında iştiraka yönələn məqsədyönlü platformadır.

- Çili müxtəlif sektorlarda iqlim böhranı barədə məlumatlılığı artırmağa və vətəndaş cəmiyyəti nöqteyi-nəzərindən həll yolları təklif etməyə səy göstərən təşkilatları bir araya gətirən **"Vətəndaş Cəmiyyəti İqlim Tədbirləri Uğrunda" (Sociedad Civil para la Acción Climática - SCAC)** platformasını yaratdı.

- Peruda isə, **İqlim Dəyişmələrinə qarşı Vətəndaş Hərəkatı (MOCICC)** yaradıldı. Bu platforma vasitəsilə vətəndaşlar müzakirələr apara və tədbirlər həyata keçirə bilir. Bu hərəkat müvafiq proseslərdə ictimai iştirakı asanlaşdıraraq vətəndaş cəmiyyətinin İqlim Dəyişmələri üzrə Milli Komitəsində təmsilçisi kimi tanınır.

- **İqlim Fəaliyyəti Şəbəkəsi - Latın Amerikası** (CAN-LA) insan fəaliyyətindən qaynaqlanan iqlim dəyişmələrini ekoloji baxımdan dayanıqlı səviyyələrdə saxlamaq üçün milli və fərdi səviyyədə fəaliyyəti təşviq edir.

# Beynəlxalq iqlim idarəçiliyi*

Beynəlxalq iqlim danışıqları iqlim dəyişmələri və onların təsirlərinə qarşı iddialı tədbirləri təşviq və təmin etmək üçün **ölkələrarası razılaşmalar** yaratmaq məqsədilə həyata keçirilən proseslərdir. Beynəlxalq çərçivədə danışıqlar ona görə önəmlidir ki, onlar dayanıqlı inkişafın təmin edilməsinə yönələn ümumi, lakin diferensial öhdəliklər prinsipi əsasında **qlobal səviyyədə əməl edilməli rəhbər qaydaları müəyyən edir.**

Ümumi, lakin diferensial öhdəliklər prinsipi UNFCCC-nin fundamental prinsiplərindən biri olmaqla, ölkələrin iqlim dəyişmələri kontekstində fərqli imkanlarını və öhdəliklərinin olduğunu təsdiq edir.





İqlim danışıqlarında baş verənlər indiki və gələcək dövrə təsir edir. Məhz buna görə də gənclər danışıqlar prosesində öz sözünü deyə bilər (və deməlidir!), öz baxışlarını və biliklərini bölüşə, müxtəlif məsələlər üzrə müzakirələrdə iştirak edə bilərlər. İqlim danışıqları ilə əlaqəli konfranslar və iclaslar iştirakı tənzimləyən müəyyən mexanizmlərə malikdir və onları anlamaq vacibdir. Bu bölmədə siz bu proses və necə iştirak edə biləcəyiniz barədə öyrənəcəksiniz.

# Danışıqlar prosesi

UNFCCC çərçivəsində iqlim danışıqlarının qərar qəbulu prosesləri yerli, milli və beynəlxalq maraqlı tərəfləri bir araya gətirir. İqlim sammitləri və əlaqədar tədbirlərdə yerli hökumətlər, beynəlxalq və milli QHT-lər, beynəlxalq təşkilatlar, milli və ya transmilli özəl sektor və uşaq və gəncləri təmsil edən təşkilatlar iştirak edir.

Bu maraqlı tərəflər və ya onları təmsil edən qruplar paralel müzakirələrdə və konfranslarda iştirak edə, ikitərəfli görüşlər tələb edə, Konvensiyanın orqanlarının plenar sessiyaları və ya iclasları zamanı ölkələrin nümayəndə heyətləri ilə birlikdə çıxış edə bilərlər. Bu platformalarda, özəl sektor, elm ictimaiyyəti, kənd təsərrüfatı və ya biomüxtəliflik kimi müxtəlif sahələrdən maraqlı tərəflər birgə iştirak edir. Onlar həmçinin iqlim idarəçiliyinin çoxsəviyyəli xarakterini möhkəmləndirmək üçün beynəlxalq, milli və ya yerli səviyyədə tədbirlər görə bilər.

Siz artıq bilirsiniz ki, iqlim danışıqları UNFCCC[2] çərçivəsində aparılır. Gəlin, indi aşağıdakı başlıqlar altında onun strukturuna, üzvlərinə və iştirakçılarına nəzər salaq:

1. Biz orqanlar və təşkilatlarla başlayırıq,
2. iştirakçılarla davam edirik,
3. danışıq qrupları ilə yekunlaşdırırıq.

Bütün ölkələrin rəsmi nümayəndə heyətləri UNFCCC iqlim danışıqlarında qərarlar qəbul etmək səlahiyyətinə sahibdir. Bununla yanaşı, müxtəlif maraqlı tərəflərlə fəal fikir mübadilələri qərar qəbulu prosesinə təsir göstərmək və onu təkmilləşdirmək üçün fundamental əhəmiyyət daşıyır.



[2] United Nations, 'Parties', UN, n.d., baxış tarixi: 30 iyun 2020

# Orqanlar və təşkilatlar

**UNFCCC Tərəflərinin Konfransı (COP):** UNFCCC-yə qoşulmuş bütün ölkələrdən təşkil olunur. Konvensiya və onun əlaqədar alətlərinin icrasını tənzimləyən ali orqandır.

**Paris Sazişinin Tərəflərinin Müşavirəsi kimi çıxış edən Tərəflər Konfransı (CMA)[3]:** bura Paris Sazişini imzalayan ölkələr daxildir. UNFCCC-yə qoşulmuş, lakin Paris Sazişini imzalamayan ölkələr müşahidəçi qismində iştirak edə bilərlər. Konfransın vəzifəsi Paris Sazişinin icrasına nəzarət etmək və onun icrası ilə bağlı qərarlar verməkdir.

Büro: 5 region tərəfindən təyin olunmuş ölkə nümayəndələrindən təşkil olunur. UNFCCC-nin və Paris Sazişinin işinə dair məsləhət və istiqamət təmin edir.

**Elmi və Texnoloji Məsləhət üzrə Yardımçı Orqan (SBSTA):** o, iqlim elmi, ətraf mühit və texnologiya məsələləri üzrə məsləhətlər verir. Onun gəldiyi yekun nəticələr daha sonra Tərəflər Konfransına təqdim olunur.

**Həyatakeçirmə üzrə Yardımçı Orqan (SBI):** UNFCCC və onun çərçivəsində imzalanmış sazişlərin icrasını dəstəkləyir. Onun gəldiyi yekun nəticələr daha sonra Tərəflər Konfransına təqdim olunur.

**UNFCCC-nin Katibliyi :** UNFCCC-yə texniki və inzibati dəstək göstərən əsas orqandır.



**Rəsmi orqanlar:** UNFCCC, Kioto Protokolu və Paris Sazişi çərçivəsində təsis olunmuş orqanlardır. Onların məqsədi müxtəlif məsələlərlə bağlı dialoqu təşviq etmək və asanlaşdırmaq, alətlərin icrasını dəstəkləməkdir. Bu rəsmi orqanlara daxildir:

- Uyğunlaşma Komitəsi (UK)
- Maliyyə üzrə Daimi Komitə (SCF).
- İtki və Zərər üzrə Varşava Beynəlxalq Mexanizminin İcraçı Komitəsi (VBM RK).
- Yerli İcmalar və Yerli Etnik Qruplar Platformasının (LCIPP) İstiqamətləndirici İşçi Qrupu.
- Potensialın Artırılması üzrə Paris Komitəsi (PCCB).
- Texnologiya üzrə İcraçı Komitə (TEC).
- İqlim Texnologiyaları Mərkəzi və Şəbəkəsi (CTCN).
- Uyğunlaşma Fondunun Şurası
- Təmiz İnkişaf Mexanizminin İcraçı Şurası (CDM EV).
- Əməletmə Komitəsi.
- Ekspertlərin Məşvərətçi Qrupu (CGE).
- Qlobal Ekoloji Fond (GEF).
- Birgə İcraya Nəzarət Komitəsi (JISC).
- Yaşıl İqlim Fondu (GCF).

[3] United Nations, 'Chapter XXVII Environment. 7. d Paris Agreement', UN, 2016, <https://treaties.un.org/Pages/ViewDetails.aspx?src=TREATY& mtdsg_no=XXVII-7-d&chapter=27&clang=_en>, baxış tarixi: 20 iyun 2020.



**İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panel (IPCC):** dünyanın müxtəlif yerlərindən iqlim dəyişmələri ilə bağlı məsələlər üzrə alim və ekspertlərdən təşkil olunur. IPCC, UNFCCC-nin tərkib hissəsi deyil; o, iqlim dəyişmələri ilə qlobal mübarizəni gücləndirmək üçün **ölkələri elmi məlumatlarla** təmin edir.

O, 3 işçi qrupundan ibarət olmaqla təşkil olunur:

- I qrup: iqlim dəyişmələrinin fiziki-elmi əsası;
- II qrup: iqlim dəyişmələrinin təsirləri, onlara uyğunlaşma və həssaslıq;
- III qrup: iqlim dəyişmələrinin yumşaldılması.

O, həmçinin İQ inventarlaşdırılmasına məsul olan xüsusi bir heyətə malikdir.

**Maliyyə mexanizmləri:** maliyyə yardımı daha çox resurslara malik ölkələrdən iqlim dəyişmələrinin təsirlərinə daha həssas olan və daha az resurslara malik ölkələrə yönləndirilir. UNFCCC buna şərait yaratmaq üçün, Paris Sazişində müəyyən edilmiş maliyyələşmə təminatı ilə əlaqədar, Maliyyə Mexanizmi yaradıb. Bu mexanizmlər SCF, Uyğunlaşma Fondunun Şurası, GEF və GCF kimi rəsmi orqanlar tərəfindən icra olunur və ya nəzarət edilir.



# İştirakçılar

İqlim danışıqlarına fərqli rollara malik müxtəlif iştirakçılar cəlb olunur.

**Ölkələr:** UNFCCC-də **"Tərəf" - ölkədir.** Bütün ölkələr iqlim danışıqlarında iştirak edə bilər. UNFCCC-nin rəsmi sənədini imzalamış və depozitariyə təhvil vermiş ölkələr yalnız müvafiq ratifikasiya prosesini həyata keçirdikdən sonra qərar və ya sazişlərə müdaxilə edirlər.
Bunu etməyən ölkələr yalnız müşahidəçi kimi iştirak edə bilər.

Ölkələr Tərəflər Konfransı (COP) vasitəsilə görüşür. Onlar beş regional qrupa bölünür:

- Afrika
- Asiya
- Mərkəzi və Şərqi Avropa
- Latın Amerikası və Karib
- Qərbi Avropa, digər ölkələrlə birgə (Avstraliya, Kanada, İslandiya, Yeni Zelandiya, Norveç, İsveçrə və ABŞ).

Bu qruplar danışıq qrupları kimi fəaliyyət göstərmir, lakin Tərəflər Konfransının hər sessiyası üçün Sədr və Büro seçmək üçün istifadə olunur. Sədrlik edən şəxs adətən regional rotasiya ilə üst-üstə düşür. Bu rotasiya ona görə vacibdir ki, ölkələr öz regionlarında Tərəflər Konfransına ev sahibliyi edəcək bir ölkəni razılaşdırırlar və sessiyanı aparmaq üçün həmin ölkədən Sədr seçirlər. Tərəflər Konfransının sessiyaları daha çox təmsilçilik və iştirakı təmin etmək üçün regionlar üzrə növbə ilə keçirilir.

**Müşahidəçilər:** danışıqlarda iştirak edən, lakin səs verə bilməyən və ya prosesə etiraz edə bilməyən bir neçə müşahidəçi qrupu var. Bu kateqoriyaya daxildir:

- Baş Katiblikdən nümayəndələr
- BMT-nin təşkilatları
- Hökumətlərarası təşkilatlar
- Qeyri-hökumət təşkilatları

QHT-lərin danışığa müşahidəçi qismində qəbul edilməsi üçün onlar ərizələrini müvafiq Tərəflər Konfransına təqdim etməlidir. Onlar təşkilatın əlaqə məlumatlarını əks etdirən **formanı** doldurmalı və müəyyən təmsilçi qrupa qoşulmaq istəyib-istəmədiklərini ifadə etməlidir.

Qəbul edilmiş QHT-lər daha sonra maraqlarına və baxışlarına uyğun **təmsilçi qruplara** daxil edilir. Hazırda təmsilçi qruplara Konvensiyaya qəbul edilmiş QHT-lərin 90 faizi qoşulub. Bu qrupların hər biri əlaqələndirici şəxsə malikdir və o, Konvensiyanın Katibliyi ilə təmasda olur.



Təmsilçi qruplar aşağıdakılardır:

- Biznes və Sənaye QHT-ləri (BINGO)
- Ekoloji QHT-lər (ENGO)
- Yerli hökumət və bələdiyyə orqanları (LGMA)
- Yerli xalqların təşkilatları (IPO)
- Elmi-tədqiqat QHT-ləri (RINGO)
- Həmkarlar İttifaqları QHT-ləri (TUNGO)
- Qadın və Gender üzrə Təmsilçi Qrup (WGC)
- Gənclər QHT-ləri (YOUNGO)
- Fermerlər.

Təşkilatınız Tərəflər Komitəsi tərəfindən qəbul edilibsə, təmsilçi qruplar üzrə əlaqələndirici şəxslərlə əlaqə saxlamaqdan çəkinməyin. Onların əlaqə məlumatları **UNFCCC-nin veb-saytında** təqdim olunur.

QHT-lərin təmsilçi qrupa qoşulması məcburi xarakter daşımasa da, iştirakın səmərəliliyini artırır. QHT-lər aşağıdakı danışıq mühitlərində iştirak edə bilər:

- Danışıq orqanlarında qruplar tərəfindən bəyanatların və müdaxilələrin hazırlanması;
- Texniki şərtlərə əsasən, müşahidəçilərin iştirakına imkan verildikdə, iclaslar;
- Paralel tədbirlər və sərgilər.- Danışıqların əhatə etdiyi müxtəlif məsələlər barədə öz baxışlarını əks etdirən yazılı rəy və məlumatların təmin edilməsi.



Siz iqlim tədbirləri ilə bağlı qərarların qəbulunda iştirak etmək hüququna sahibsiniz. Bir gənc olaraq, siz öz ölkənizin rəsmi nümayəndə heyətinin tərkibində beynəlxalq danışıqlara qoşula, UNFCCC-ə qəbul edilmiş QHT-lərə qoşula, yaxud gənclərin UNFCCC-dəki rəsmi təmsilçi qrupu olan **YOUNGO** vasitəsilə iştirak edə bilərsiniz.

**Akkreditə olunmuş jurnalistlər** danışıqlarda müşahidəçi kimi iştirak edə bilərlər. Mətbuata verilən yerlərin sayı danışıqlarda müzakirə edilən məsələlərdən və onların aktuallığından asılıdır. Katiblik iqlim dəyişikliyi prosesi barədə məlumatlılığın çox zaman aşağı olduğu inkişaf etməkdə olan ölkələrdə mediada işıqlandırılmanı artırmaq üçün həmin ölkələrdən olan jurnalistləri danışıq sessiyalarında iştiraka çağırıb.

**Qeyri-dövlət maraqlı tərəflər:** prosesləri gücləndirmək üçün, qeyri-dövlət maraqlı tərəflər UNFCCC-nin dialoq platformalarında iştirak edə bilərlər. Bura vətəndaş cəmiyyəti, özəl sektor, maliyyə institutları, şəhər və digər submilli özünüidarəetmə orqanları, yerli icmalar və yerli etnik qruplar daxil ola bilər.

# Danışıq qrupları

Beynəlxalq danışıqlarda ölkələr öz mövqelərini uzlaşdırmaq və prosesin dayanıqlılığını təmin etmək üçün ənənəvi olaraq koalisiyalarda və ya danışıq bloklarında bir araya gəlirlər. Çünki razılığa gəlmək üçün bütün ölkələr arasında konsensus olmalıdır.
Bloklar spesifik məsələlərdə yaxınlıq və mövqeyə, təsir yönümlü koalisiyalara və ya institusional və ya siyasi qruplara uyğun olaraq təşkil olunur. Qruplar aşağıdakılardır:

**1 Alianza Bolivariana para los Pueblos de Nuestra América (Amerika Xalqları üçün Bolivar İttifaqı - ALBA)**

- Boliviya, Kuba, Ekvador, Nikaraqua və Venesuela

**2 Kiçik Ada Dövlətləri İttifaqı (AOSIS)**

- Bu, 40 adadan ibarət koalisiyadır. Çoxu G-77 qrupuna daxil olan ölkələrdir və dəniz səviyyəsinin qalxmasına qarşı çox həssasdır.

**3 Alianza Independiente de América Latina y el Caribe (Latın Amerikası və Karib Hövzəsi üzrə Müstəqil Alyans - AILAC)**

- Çili, Kolumbiya, Kosta-Rika, Qvatemala, Honduras, Panama, Paraqvay və Peru

**4 G77 və Çin**

- İnkişaf etməkdə olan ölkələr və Çin

**5 Afrika Qrupu**

- G77 qrupunun tərkibində 53 Afrika ölkəsindən ibarət alt-qrup

**6 BASIC Qrupu**

- Keçid iqtisadiyyatı ölkələri olan Braziliya, Cənubi Afrika, Hindistan və Çin

**7 CACAM Qrupu**

- Mərkəzi Asiya, Qafqaz, Albaniya və Moldova ölkələri qrupu

**8 İqlim Dəyişikliyi üzrə Bənzər mövqeli inkişaf etməkdə olan ölkələr (LMDC)**

- Əlcəzair, Banqladeş, Boliviya, Çin, Kuba, Ekvador, Misir, Salvador, Hindistan, İndoneziya, İran, İraq, İordaniya, Küveyt, Malayziya, Mali, Nikaraqua, Pakistan, Səudiyyə Ərəbistanı, Şri-Lanka, Sudan, Suriya Ərəb Respublikası, Venesuela və Vyetnam

**9 Ərəb dövlətləri**

- Əlcəzair, Bəhreyn, Komor adaları, Cibuti, Misir, İraq, İordaniya, Küveyt, Livan, Liviya, Mavritaniya, Mərakeş, Oman, Fələstin, Qətər, Səudiyyə Ərəbistanı, Somali, Sudan, Suriya, Tunis, Birləşmiş Ərəb Əmirlikləri və Yəmən

**10 Ətraf Mühitin Bütövlüyü Qrupu**

- Gürcüstan, Koreya Respublikası, Lixtenşteyn, Meksika, Monako və İsveçrə

**11 Çətir Qrup**

- Avstraliya, Belarus, Kanada, İslandiya, İsrail, Yaponiya, Qazaxıstan, Yeni Zelandiya, Norveç, Rusiya Federasiyası, Ukrayna və ABŞ

**12 Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC)**

- Əlcəzair, Anqola, Konqo Respublikası, Ekvatorial Qvineya, Qabon, İran İslam Respublikası, İraq, Küveyt, Liviya, Nigeriya, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və Venesuela

**13 Ən az inkişaf etmiş ölkələr**

- 77-lik Qrupun (G77) tərkibində BMT-nin təsnifatına uyğun olaraq, ən az inkişaf etmiş 48 ölkədən ibarət alt-qrup

**14 Mərkəzi Amerika İnteqrasiya Sistemi (SICA**

- Kosta-Rika, El Salvador, Qvatemala, Honduras, Nikaraqua və Panama

**15 Avropa İttifaqı**

- 27 Aİ üzv dövləti

Bunlar ənənəvi olaraq beynəlxalq iqlim danışıqlarında iştirak etmiş qruplardır. Ölkə bir və ya bir neçə danışıqlar qrupunun üzvü ola bilər və danışıqların gedişində digər qruplar da meydana çıxır. Sizə müntəzəm olaraq yenilənən və müxtəlif qruplar arasında dinamikanı göstərən interaktiv **rəqəmsal platformaları** araşdırmağı təklif edirik.

# Təşviqat və danışıq platformaları

Beynəlxalq iqlim danışıqları və təşviqat UNFCCC çərçivəsində müxtəlif platformalarda aparılır və rəsmi və ya qeyri-rəsmi ola bilər. Qərar qəbulu prosesinə təsir edən digər əlaqəli platformalar da var. Aşağıdakı platformalarda təsir göstərə bilərsiniz:

**Plenar iclaslar:** Rəsmi danışıqlar Tərəflər Konfransının plenar iclaslarında və UNFCCC Sazişləri çərçivəsində (məsələn, CMA) baş verir. Onlar həmçinin yardımçı orqanların plenar iclaslarında baş tutur. Rəsmi danışıqlar zamanı, qeyri-rəsmi danışıqlarda müəyyən edilmiş və razılaşdırılmış mövqelər möhkəmləndirilir. Danışıqların bütün dillərdə izlənilə bilməsi üçün sinxron tərcümə xidmətləri təmin edilir. Bütün ölkələr və nümayəndəliklər iştirak edə bilər. Tərəflər Konfransının sədri icazə verərsə, akkreditə olunmuş müşahidəçilər və mətbuat da iştirak edə bilər.

**Qeyri-rəsmi qruplar:** bunların məqsədi rəsmi iclaslardan əvvəl müxtəlif məsələlər üzrə konsensusa nail olmaqdır. Qeyri-rəsmi sessiyalar daha az müşahidəçiyə malikdir və kiçik otaqlarda keçirilir. Müşahidəçilər iştirak edə bilər (aparıcı və ya moderator onlardan tərk etməyi xahiş edənə qədər). Sessiyalar adətən ingilis dilində olur və digər analoji sessiyalarla eyni vaxtda keçirilir, ona görə də bütün nümayəndə heyətləri hamısında iştirak edə bilmir. Belə olduqda, iştirak etməyən tərəflər qəbul edilən bəzi qərarlardan çıxarılır.

Qeyri-rəsmi sessiyalar Tərəflər Konfransının sədri və ya yardımçı orqanların sədri tərəfindən təşkil edilir. Qeyri-rəsmi qrupların müxtəlif növləri var:

- **Əlaqə qrupları:** bunlar Tərəflər Konfransı və ya yardımçı orqanlar tərəfindən çağırılır.
- **Birgə əlaqə qrupları:** bunlar birləşmiş bir neçə əlaqə qrupundan təşkil olunur.
- **Tərtibçi qruplar:** bunlar müzakirə olunacaq mətnlərin tərtib olunması üçün könüllülük edən və ya toplaşan nümayəndələrdən ibarətdir.
- **Sədrin dostları:** Sədr müəyyən məsələlər üzrə qeyri-rəsmi konsensusun əldə edilməsinə kömək üçün danışıqların aparılması üzrə tanınmış mütəxəssislər qrupunu dəvət edə bilər.
- **Yüksək səviyyəli seqment:** bunlar əsas qərar qəbul edən orqanlarda baş verən seqmentlərdir. Hər bir ölkənin siyasi liderləri bir araya gəlir və razılaşmaların əldə edilməsi üçün lazım olan siyasi dəstəyi verirlər.

# Digər təşviqat və danışıq platformaları

- **Paralel panellər:** danışıqlar bəzən qeyri-rəsmi olaraq kafelərdə, nahar süfrələrində və ya əsas hökumətlərlə təşkil olunan ziyafətlərdə baş verir.

- **İkitərəfli görüşlər:** bu tip danışıqların məqsədi ölkənin mövqeyini və danışıqların gedişatını anlamaqdır.

- **Paralel tədbirlər və sərgilər:** bunlar Tərəflər Konfransında və ya yardımçı orqanların platformalarında iştirak edən insanlara öz danışıqları ilə bağlı məsələlərə dair məlumatlar və müzakirələr vasitəsilə fayda vermək üçün nəzərdə tutulur. Tərəflər Konfransından əvvəl, YOUNGO tərəfindən təşkil edilən Gənclər Konfransı kimi kənar tədbirlər və konfranslar da baş verir.

- **Mətbuat konfransları:** ölkələr keçirilməkdə olan danışıqlara dair mətbuata məlumatlar təqdim edə bilərlər. Məlumatlar ölkənin və ya danışıqlar qrupunun mövqeyini təqdim etməli, asan başa düşülməli və danışıqların hər bir ölkədə və ya ölkələrdə insanların həyatına necə təsir göstərə biləcəyinin nəqli təsvirini ehtiva etməlidir. Bu mətbuat məlumatları mühüm məsələləri qaldıra və ya onlara mane ola bilər.



# İqlim dəyişmələri üzrə beynəlxalq danışıqlarda əsas məsələlər

Biz UNFCCC-ni təşkil edən, ölkələrin razılaşmalara nail olması və bu razılaşmaların həyata keçirilməsi üçün zəruri olan qurumları əhatə etdik. Biz, həmçinin hansı maraqlı tərəflərin danışıqlarda iştirak etdiyinə və təsir göstərdiyinə və təsir göstərə biləcəyiniz rəsmi və qeyri-rəsmi danışıqlar platformalarına nəzər saldıq. İndi isə danışıqlar prosesinə geniş nəzər salaq. Bilmək vacibdir ki, iqlim dəyişmələri üzrə beynəlxalq danışıqlar il boyu davam edən və Tərəflər Konfransı ilə zirvə nöqtəsinə çatan prosesdir.



## Çoxsəviyyəli iqlim idarəçliyi[1]




4 International Institute for Environment and Development, ‘Q&A: Key decisions needed at COP22’, IIED, 2016, <www.iied.org/qa-key-decisionsneeded-cop22>, baxış tarixi: 25 iyun 2020.

- IPCC daxilindəki yardımçı orqanlar və işçi qruplar öz ixtisaslaşma sahələrinə aid olan məsələləri müzakirə etmək və sonradan Tərəflər Konfransında ölkələrin diqqətinə çatdırılacaq yekun nəticələrə gəlmək üçün görüşlər keçirirlər.

- Rəsmi orqanlar (UNFCCC və ya qəbul edilmiş sazişlər çərçivəsində yaradılmış) müvafiq məsələlərdə irəliləyiş əldə etmək və müxtəlif ölkələr arasında konsensusa nail olmaq üçün iclas keçirir. Danışıqlara məsul olan qruplar da mövqeləri müzakirə etmək və birgə mövqelər hazırlamaq üçün bir araya gəlirlər.

- Tərəflər Konfransından əvvəl Tərəflər Konfransının Hazırlıq Müşavirəsi (TKHM) keçirilir. Burada ölkələr TK-də təqdim olunacaq razılaşmaları hazırlamağa başlayır və konsensusa nail olmağa çalışır.
TK-dən əvvəl müxtəlif məsələlər üzrə bəzi siyasi mövqelər ortaya çıxa bilər.

- İlin sonunda TK keçirilir və iclasın gündəliyinin təsdiq olunduğu plenar iclasla başlayır. Bu gündəliyə yardımçı orqanların və IPCC-nin gəldiyi yekun nəticələr daxil edilir.

- Sonra iş yardımçı orqanların plenar iclaslarına və yaradılmış işçi qruplarına keçir. Gündəliyə daxil edilən məsələlərdən asılı olaraq, həmin məsələlər üzrə ölkələr arasında konsensus əldə etmək üçün qeyri-rəsmi qruplar çağırıla bilər.

Fəallar tez-tez UNFCCC-nin orqanlarının və işçi qruplarının fəaliyyətinə və qəbul edilmiş sazişlərə (məsələn, Paris Sazişi) görə hesabatlılığın təmin edilməsinə cəlb olunur.

- Danışıqlar üçün əsas ola biləcək danışıqlar mətninin hazırlanmasına nə vaxt başlanılacağına dair qərarı danışıqlara sədrlik edən şəxs verir. Bu onlar ölkələrdən kifayət qədər təklif aldıqdan sonra edilir. Sədr narahatlıq doğuran məsələlərin müəyyən edilməsi və müxtəlif mövqelər arasında ortaq məxrəcə gəlinməsi məqsədi ilə danışıqlar üzrə bloklarla qeyri-rəsmi məsləhətləşmələr apara bilər.
Eynilə, sədr ölkələrin öhdəlik götürməyə və mətnə razılaşmağa hazır olduğunu hesab etdikdə təkliflər verə bilər.

- Qeyri-rəsmi qruplar mətnlə bağlı razılığa gəldikdə, sənədi müvafiq plenar iclasda təqdim edilməsi üçün yardımçı orqanlara və işçi qruplara ötürürlər. Qeyri-rəsmi qruplar razılığa gəlməsələr, danışıqlara davam edirlər. Sədr konsensusa nail olmaq üçün danışıq mütəxəssislərindən ibarət kiçik qrup təşkil edə bilər (“Sədrin Dostları” kimi). Yekun plenar iclasda razılaşdırılmış qərarlar qəbul edilir.



# İqlim dəyişmələri üzrə beynəlxalq danışıqlarda əsas məsələlər

İqlim dəyişmələri üzrə beynəlxalq danışıqlarda məsələlər UNFCCC-nin strukturu və fəaliyyəti və UNFCCC ölkələri tərəfindən qəbul edilmiş razılaşmaların həyata keçirilməsi ilə bağlı olur. Danışıqlar, həmçinin kəsişən mövzular, məsələn, ölkələr arasında iqlimlə bağlı tədbirlərin qeyri-ardıcıllığı və iqlim tədbirlərində daha yüksək hədəflərin zəruriliyi ilə bağlı aparılır.

Əsas məsələlər bunlardır:

**Yumşaltma (mitiqasiya):** Danışıqlarda əsas diqqət İEQ tullantılarının azaldılması və İQ-ləri tutan uducuların və ya təbii hövzələrin yaxşılaşdırılması səylərinə yönəldilir.

**Uyğunlaşma (adaptasiya):** İqlim dəyişikliyinə uyğunlaşma ilə bağlı müzakirələrdə əsas diqqət iqlimin necə və nə qədər dəyişəcəyinə, uyğunlaşma ehtiyacları və xərclərinə yetirilir. Uyğunlaşma vasitələri, təsir və zəifliklərin qiymətləndirilməsi, maliyyələşdirmə məsələləri də bu məsələyə daxildir.

**İtki və zərər:** İtki və zərər üçün rəsmi tərif müəyyən edilməmişdir, lakin bu, adətən iqlim dəyişmələrinin insanların öhdəsindən gələ bilmədiyi və ya uyğunlaşa bilmədiyi mənfi təsirləri və dəyişkənliyi kimi təsvir edilir.
Müzakirələr fəlakətlərin azaldılması strategiyalarını və itki və zərərin aradan qaldırılması üçün tətbiq edilə biləcək vasitə və ya mexanizmləri əhatə edir, lakin bu məsələyə fərqli yanaşmaların olduğunu nəzərə almaq lazımdır.

Mübahisəli məsələlərdən biri itki və dəymiş ziyana görə "kompensasiya"dır. Təsirlərə görə müxtəlif məsuliyyət dərəcələrinin müəyyən edilməsi səylərinə baxmayaraq, sənayeləşmiş ölkələr bu dərəcələrin təyin edilməsinin çətin olduğunu iddia edirlər.

**Maliyyələşmə:** Danışıqlar maliyyələşdirmə mexanizmlərinə və verilən və qəbul edilən maliyyə dəstəyinin monitorinqinə əsaslanır. "Xüsusilə həssas ölkələr"in tərifi ilə bağlı mübahisələr var. Çünki iqlim fondunun resurslarının bölüşdürülməsində bu ölkələrə üstünlük verilməlidir.

**Şəffaflıq:** Şəffaflıq iqlim dəyişmələri üzrə beynəlxalq danışıqlar başlayandan (UNFCCC yaradıldığı vaxtdan) bəri, çoxsahəli məsələ olmuşdur. Şəffaflıq həyata keçirilmiş fəaliyyətlərin ölçülməsi, hesabatı və yoxlanılması üçün vacibdir. Bunsuz iqlim tədbirlərinin həyata keçirilməsinə nəzarət etmək mümkün deyil. Bütün birgə səylər etibarlı şəffaflıqdan asılıdır.

**Texnologiyaların inkişafı və ötürülməsi:** Ölkələr inkişaf etməkdə olan ölkələrə texnologiyaların və müvafiq praktiki biliklərin ötürülməsini (və ya əlçatanlığını) təşviq etmək, asanlaşdırmaq və maliyyələşdirmək üçün tədbirləri müzakirə edirlər. Onlar həmçinin insan fəaliyyətindən qaynaqlanan İQ tullantılarının azaldılmasına kömək edə biləcək texnologiyaların, təcrübələrin və proseslərin işlənib hazırlanması və tətbiqi üzrə əməkdaşlığı müzakirə edirlər.

Danışıqlara həmçinin texnologiyaların tətbiqi ilə bağlı mövcud maneələr (əqli mülkiyyət hüquqları kimi) məsələsi də daxildir. Bu gün bəzi azkarbonlu texnologiyalar baha başa gəlir və yeni texnologiyalar üçün maliyyə vəsaiti əldə etmək çətindir.

**İqlim sahəsində Səlahiyyətlərin Artırılması üçün Fəaliyyət (ACE):** ACE üçün prioritet sahələr olan təhsil, təlim və ictimai məlumatlılıq məsələləri də danışıqlarda müzakirə olunur. Digər məsələlərə iqlim dəyişikliyi ilə bağlı məlumatlara çıxış imkanı, iqlim sahəsində səlahiyyətlərin artırılmasını təşviq etmək üçün materialların, məlumatların və fəaliyyətlərin yaradılması istiqamətində beynəlxalq əməkdaşlıq daxildir.

**Gender:** Ölkələr qadınların və kişilərin UNFCCC proseslərinə və genderə həssas milli iqlim siyasətlərinin işlənib hazırlanması və həyata keçirilməsinə bərabər şəkildə cəlb edilməsinin vacibliyini qəbul edib, məhz buna görə də, Gender üzrə Fəaliyyət Planı qəbul edilib. Ölkələr, həmçinin gender balansı üzrə hədəflər və genderə həssas iqlim siyasətinin həyata keçirilməsi üzrə əldə edilmiş irəliləyişi nəzərdən keçirir.

**Yerli etnik qruplar:** İqlim dəyişmələrinə qarşı mübarizə və cavab tədbirləri ilə bağlı yerli icmaların və yerli etnik qrupların bilik, texnologiya, təcrübə və səylərinin gücləndirilməsi zərurəti müzakirə edilən məsələlər arasındadır. Yerli İcmalar və Yerli Etnik Qruplar Platforması danışıqlar prosesinə dəstək kimi iqlim dəyişmələrinin təsirlərinin yumşaldılması və onlara uyğunlaşma üzrə təcrübələrin və nümunəvi tədbirlərin geniş mübadiləsi üçün yaradılıb.

**Kənd təsərrüfatı:** Danışıqlarda ekspert seminarları və görüşləri, habelə UNFCCC-nin yardımçı orqanları ilə iş çərçivəsində kənd təsərrüfatı ilə əlaqəli məsələlər əhatə edilir. Bu səylər kənd təsərrüfatının iqlim dəyişmələrinə qarşı zəifliklərini və ərzaq təhlükəsizliyinin təmin edilməsi üzrə yanaşmaları nəzərdən keçirmək məqsədi daşıyır.

**Kooperativ həyatakeçirmə:** ölkələr iqlim tədbirləri üzrə hədəfləri yüksəltmək məqsədilə, NDC-lərin icrasını dəstəkləmək üçün könüllü əməkdaşlıq etməyi seçə bilər. Danışıqlar ölkələrin həyata keçirə biləcəyi, Paris Sazişinə daxil edilmiş əməkdaşlıq yanaşmaları və mexanizmlərinə əsaslanır (maddə 6).

**Potensialın artırılması:** potensialın artırılması UNFCCC və Paris Sazişinin məqsədlərinə nail olmaq üçün fundamental əhəmiyyət daşıyır. Ölkələr beynəlxalq əməkdaşlıq vasitəsilə bu potensialın hər bir ölkədə artırılması yollarını müzakirə edirlər.

**Elm:** elmi müşahidələr, tədqiqatlar və qiymətləndirmələrin beynəlxalq iqlim rejimi üçün məlumatlar təmin etməyə davam etdiyini nəzərə alaraq, iqlim elmi ilə siyasət arasında səmərəli qarşılıqlı əlaqə iqlim danışıqlarında irəliləyiş üçün vacibdir.



# İlhamlan!

## Beynəlxalq səviyyədə gənclərin iştirakına dair təcrübələr

## UNFCCC-də gənclərin rəsmi təmsilçi qrupu

Gəncləri UNFCCC-nin iqlim dəyişmələri prosedurlarında YOUNGO təmsilçi qrupu rəsmi olaraq təmsil edir. YOUNGO Tərəflər Konfranslarında iştirak edən gənclərin mütəşəkkil təşəbbüsü olaraq başlasa da, 2009-cu ildəki iqlim danışıqlarında təmsil olunmaq üçün imkan tapa bilmədi. Nəticədə, Monrealdakı 11-ci TK-dən əvvəl, gənclər ilk dəfə Gənclər Konfransında bir araya gəldilər və UNFCCC tədbirlərində gənclər üçün rəsmi platformanın yaradılması prosesinə başladılar. YOUNGO rəsmi olaraq 2011-ci ildə tanındı.

**Görülmüş tədbirlər:**

- Biz hər il Tərəflər Konfransına ev sahibliyi edən ölkədə Gənclər Konfransı keçiririk. Məqsəd dünyanın müxtəlif yerlərindəki uşaqların və gənclərin iqlim tədbirləri görmək üçün səlahiyyətlərini artırmaqdır;
- Tərəflər Konfransı zamanı YOUNGO plenar və danışıq sessiyalarında iştirak edir, ölkələr və qeyri-dövlət maraqlı tərəflərlə paralel tədbirlər təşkil edir və iştirak edir, danışıqlarda təşviqat aparır;
- O, il boyu potensialın inkişaf etdirilməsinə yönələn tədbirlərdə iştirak edir və vebinarlar təşkil edir.

**Qarşıya çıxan çətinliklər:**

- Cənub yarımkürəsindəki inkişaf etmiş ölkələrdən olan gənclərin danışıqlarda inklüziv iştirakı;
- Gənclərin rəylərinin yekun qərarlara daxil edilməsi;
- Dil və əlaqə imkanları üzrə məhdudiyyətlər.

**Nəticələr:**

- Biz 2009-cu ildən bəri 130 millətdən olan 30 minə yaxın gəncin səlahiyyətlərini artırmışıq;
- Katovitse Qaydalar Toplusu: o, gənclərin ACE-nin həyata keçirilməsində əsas rolunu və YOUNGO-nun ACE Gənclər Forumunda iştirakının mühüm rolunu təsdiqləyir;
- İqlim dəyişmələri ilə əlaqəli məsələlərdə gənclər üzrə gündəliyin mövqeyi barədə çoxsaylı qərar qəbulu proseslərində bizimlə məsləhətləşmə aparılıb.



# Mənbələr


Carbon Market Watch, 'Side Event at COP21: What are NAMAs and how is civil society engagement important for their success', Carbon Market Watch, 2015, <https://carbonmarketwatch.org/wp- content/uploads/2015/11/NAMA-Side-Event-Report_Final.pdf>, baxış tarixi: 25 iyun 2020.

Carmona Gómez, E., 'La gobernanza climática en América del Norte: Actores, instituciones y dinámicas en la formación de políticas', Norteamérica, vol. 7, no. 1, 2012, pp. 193-206.

Center for Climate and Resilience Research, 'La Gobernanza del Cambio Climático en Chile', Center for Climate and Resilience Research, Santiago, 2014, <www.local2030.org/library/210/A-Guide-to-Multi- level-Governance-For-Local-and-Regional-Public-Authorities.pdf>, baxış tarixi: 24 iyun 2020.

Center for International Environmental Law, 'Promoting Public Participation in Climate Policies Public Participation in International Climate and Environmental Frameworks', CIEL, 2018, <www.ciel.org>, baxış tarixi: 24 iyun 2020.

Center for International Environmental Law, 'Promoting Public Participation in Climate Policies: Opportunities at the 48th Session of the Subsidiary Bodies', CIEL, 2018, <www.ciel.org/wp- content/uploads/2018/04/PromotingParticipation_EntryPoints_SBs48-final.pdf>, baxış tarixi: 27 iyun 2020.

CoopEnergy, 'Guía para la gobernanza multinivel. Para autoridades públicas locales y regionales', 2015, <www.eve.eus/EveWeb/media/EVE/pdf/proyectos-europeos/Gobernanza-multinivel-72.pdf>, baxış tarixi: 24 iyun 2020.

Córdova Bojórquez, Gustavo, María de Lourdes Romo Aguilar, 'Gobernanza climática: Actores sociales en la mitigación y adaptación en el estado de Coahuila, México', Nóesis, Revista de Ciencias Sociales y Humanidades, vol. 24, no. 47–2, 2015, pp. 129–146, <https://doi.org/10.20983/noesis.2015.13.10>,
Baxış tarixi: 27 iyun 2020.

Daniell, Katherine A. and Adrian Kay, 'Multi-level governance: An introduction. Multi-Level Governance: Conceptual Challenges and Case Studies from Australia', 2017, <https://doi.org/10.22459/mg.11.2017.01>, baxış tarixi: 24 iyun 2020.

Dávalos, J., La Agenda Climática Global en las Ciudades Latinoamericanas. Actores no Estatales y Gobiernos Subnacionales en Acción, Fundación Carolina, Madrid, 2020.

Gobierno de la República de Chile, 'Consulta Ciudadana NDC de Chile', n.d., <https://consultasciudadanas.mma.gob.cl/portal/consulta/58>, baxış tarixi: 25 iyun 2020.

Gobierno de la República de Chile, 'Primer proceso de Actualización de la Contribución Determinada a Nivel Nacional', 2019, <https://mma.gob.cl/primer-proceso-de-actualizacion-de-la-contribucion- determinada-a-nivel-nacional-ndc/>, baxış tarixi: 25 iyun 2020.

Gobierno de México, ‘Proceso de actualización de las Contribuciones Determinadas a nivel Nacional (NDC)’, 2020, <www.gob.mx/semarnat/acciones-y-programas/proceso-de-actualizacion-de-las-contribuciones-determinadas-a-nivel-nacional-ndc>, baxış tarixi: 6 iyul 2020.

Gobierno de México, ‘Diálogo con juventudes mexicanas en el marco de la actualización de las Contribuciones Determinadas a nivel Nacional (NDC)’, 2020, <www.gob.mx/semarnat/acciones-y- programas/dialogo-con-juventudes-mexicanas-en-el-marco-de-la-actualizacion-de-las-contribuciones- determinadas-a-nivel-nacional-ndc>, baxış tarixi: 6 iyul 2020.

Gobierno de México, ‘Proceso Participativo a Nivel Nacional en el marco de las actualización de las Contribuciones Determinadas a Nivel Nacional’, n.d., <https://docs.google.com/forms/d/e/1FAIpQLSek_K7nLK8wHByKbBr4faj-aejA6WGpeUfI580FhT84cDbGHQ/viewform>, baxış tarixi: 25 iyun 2020.

Gobierno de la República de Peru, ‘MINAM informa sobre proceso participativo para la elaboración del Reglamento de la Ley Marco sobre Cambio Climático’, Lima, 2018, <www.minam.gob.pe/notas-de-prensa/minam-informa-sobre-proceso-participativo-para-la-elaboracion-del-reglamento-de-la-ley-marco-sobre-cambio-climatico/>, baxış tarixi: 26 iyun 2020.

Hernández, F., ‘Instrumentos para la gobernanza’, presented at the 12th Congress on the Environment, Madrid, November 25-27, 2014, <www.conama.org/conama/download/files/conama2014/STs 2014/1996711254_ppt_FHeras.pdf>, baxış tarixi: 25 iyun 2020.

Martínez, A., ‘El Consejo Climático Ciudadano y el Consejo Climático Científico en Costa Rica’, La Ruta del Clima, 2017, <https://larutadelclima.org/2017/11/07/consejos-climaticos-ciudadanos-y-cientificos- en-costa-rica/>, baxış tarixi: 15 iyul 2020.

Movimiento Ciudadano frente al Cambio Climático, ‘MOCICC promueve en regiones diálogos sobre el compromiso climático del Perú - MOCICC - Movimiento Ciudadano frente al Cambio Climático’, Lima, 2019, <www.mocicc.org/noticias/mocicc-promueve-en-regiones-dialogos-sobre-el-compromiso-climatico-del-peru/>, baxış tarixi: 15 iyul 2020.

Movimiento Ciudadano frente al Cambio Climático, ‘Unidos para enfrentar el cambio climático en Perú’, Lima, 2020, <www.mocicc.org/cambio-climatico-en-peru-2/>, baxış tarixi: 15 iyul 2020.

Programa de las Naciones Unidas para el Desarrollo, Guía de apoyo para negociadores iberoamericanos, PNUD, Panamá, 2019, <https://www.latinamerica.undp.org/content/rblac/es/home/library/environment_ energy/guia-de-apoyo-para-negocionadores-iberoamericanos--hacia-la-impl.html>,baxış tarixi: 19 iyun 2020

Sociedad Civil por la Acción Climática, ‘Sociedad Civil por la Acción Climática’, SCAC, n.d., <www.porlaaccionclimatica.cl/#https://www.porlaaccionclimatica.cl/#!/nosotros>, baxış tarixi: 15 iyul 2020.

United Nations, ‘Communication of long-term strategies’, UN, n.d., <https://unfccc.int/process/ the-paris-agreement/long-term-strategies>, baxış tarixi: 17 iyun 2020.

United Nations, ‘Guidelines for the preparation of national adaptation programmes of action. Decision 28/CP.7’, baxış tarixi: 17 iyun 2020.

United Nations, ‘Guidelines for the preparation of national adaptation programmes of action. Decision 28/CP.7’, United Nations, n.d., <https://unfccc.int/resource/docs/cop7/13a04.pdf#page=7>, baxış tarixi: 27 iyun 2020.

United Nations, ‘National communication submissions from non-Annex I parties’, United Nations, n.d., <https://unfccc.int/non-annex-I-NCs>, baxış tarixi: 27 iyun 2020.

United Nations, ‘Paris Agreement’, United Nations, 2015, <https://unfccc.int/files/essential_background/convention/application/pdf/english_paris_agreement.pdf>, baxış tarixi: 18 iyun 2020.

United Nations, ‘Parties’, United Nations, n.d., <https://unfccc.int/process/parties-non-party- stakeholders/parties-convention-and-observer-states>, baxış tarixi: 19 iyun 2020.

United Nations, ‘What is the Paris Agreement?’, United Nations, n.d., <https://unfccc.int/process-and- meetings/the-paris-agreement/what-is-the-paris-agreement>, baxış tarixi: 10 iyun 2020.

Warner, Koko, et al., ‘Evidence from the frontlines of climate change: Loss and Damage to communities despite coping and adaptation’, Policy Report, Report no. 9, United Nations University, Institute for Environment and Human Security, Bonn, 2012, <www.ciesin.org/binaries/web/global/news/2013/cdkn- report.pdf>, baxış tarixi: 28 iyun 2020.

